**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№387/3** **14 may 2026-cı il**

**Keyfiyyətə kənar nəzarət sahəsində aparılmış monitorinqlərin nəticələri barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 1.5-ci "Keyfiyyətə kənar nəzarət sahəsində yol verilən nöqsanların mövcud vəziyyəti barədə hesabatın tərtib edilməsi və aradan qaldırılması üzrə təkliflərin verilməsi" bəndinin icrası ilə əlaqədar Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) tərəfindən 2026-cı ilin I rübü ərzində keyfiyyətə kənar nəzarət üzrə aparılmış monitorinqlərin nəticəsinə dair təqdim edilmiş hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2026-cı ilin I rübü ərzində keyfiyyətə kənar nəzarət üzrə aparılmış monitorinqlərin nəticəsinə dair hesabat nəzərə alınsın (əlavə olunur).

2. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. tələbləri ən çox pozulan 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" Beynəlxalq Audit Standartlarına dair mövzuların 2026-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramına daxil olunması təmin edilsin;

2.2. 500 saylı "Audit sübutu" və 505 saylı "Kənar mənbədən təsdiqləmələr" Beynəlxalq Audit Standartlarının tələblərinə natamam şəkildə riayət edən auditorların ("CƏFƏROĞLU AUDİT" MMC-nin auditoru Rzayev Ramin Baxşəli oğlu, "ARQUMENT AUDİT" MMC-nin auditoru İsmayılov İlkin Həmzə oğlu, "KH.J.A Audit-Consulting Xidməti" MMC-nin auditoru Əliyev Xaləddin Calal oğlu, "BERC AUDIT" MMC-nin auditoru Rəsulzadə Elnur Cəsayil oğlu, "AZƏRİ AUDİT SERVİS" MMC-nin auditoru Şirinov Yasin Rza oğlu) nəzərlərinə çatdırılsın ki, gələcəkdə qeyd olunan standartların tələblərinə tam riayət olunsun;

2.3. Beynəlxalq Audit Standartlarının tələblərinə tam riayət etmədiyi üçün "Analitik - Audit Konsaltinq" MMC-nin auditoru Qurbanov Abbasəli Şükür oğluna şifahi xəbərdarlıq elan edilsin.

3. Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər idarəsinə (Ə.Aslanov) və həmin idarənin Daxili nəzarət və komplayens şöbəsinə (Z.Almazov) tapşırılsın ki, auditor təşkilatlarında daxili nəzarət üzrə məsul şəxslər üçün metodiki tövsiyələr hazırlanmasını, praktiki izahatların verilməsini və daxili nəzarət sisteminin tətbiqi üzrə vahid yanaşmanın formalaşdırılmasını təmin etsinlər.

4. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**